**Bu baharın bir qəsdi**

Bu baharın bir qəsdi də
Gülü dağa yetirməkdi
Buludları nəm eləmək,
Nəm yanağı qurutmadı.

Daraq vurmadı saçlara,
Çörək vermədi aclara.
Qəm göyərdən ağacları
Kökünəcən çürütməkdi.

Günə tutmaq ev-eşiyi,
Bağalara çəkmək keşiyi...
Ağacdan asılan beşiyi
Ehmal-ehmal yürütməkdi.

Bulud qovmaq göy üzündən,
Nur calamaq ay üzündən...
Buz qoparmaq çay üzündən,
Çeşmələri arıtmaqdı.

İmən axdı, hana yığan,
Hanasına xına yığan,
Sıldırımı cana yığan
Şəlaləni kiritməkdi.

Dürlü-dürlü nəşəsi var,
Yaradandı – tişəsi var.
Yazın bircə peşəsi var;
Diriltməkdi, diriltməkdi.

**Bu baharın bir qəsdi : şeir // Azərbaycan xalq bayramı Novruz. – Bakı : Təhsil, 2011. – S. 37.**